


# Bakıda Muğam Mərkəzinə "beynəlxalq" statusu verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkə həyatının digər sahələri kimi, mədəniyyətin bütün istiqamətlərinin inkişafı daim diqqətdə saxlanılır. Eyni zamanda, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə mədəniyyət xadimlərinin sosial şəraitinin yaxşılaşdırılması, yaradıcılıq imkanlarının genişləndirilməsi ilə bağlı mühüm işlər həyata keçirilir.**

Bu işlərin davamı kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 oktyabr 2024-cü il tarixli qərarı ilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Muğam Mərkəzinə "beynəlxalq" statusu verilib. Mədəniyyət Nazirliyinin verdiyi məlumatda vurğulanıb ki, Muğam Mərkəzi ölkəmizdə qanunvericiliklə "beynəlxalq" statusu alan ilk mədəniyyət müəssisəsidir. Yeni status uzun illərdir paytaxtımızın aparıcı konsert müəssisələrindən biri kimi fəaliyyət göstərən mərkəzdə çalışan insanların maddi rifahının yaxşılaşmasına səbəb olacaq.

Muğam Mərkəzi Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2005-ci il 6 aprel tarixli sərəncamı ilə yaradılıb. Həmin il təməli qoyulan və Bakının unikal memarlıq layihələrindən olan mərkəzin binası 2008-ci ildə istifadəyə verilib.

Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan mərkəz bir sıra ölkələrin mədəniyyət ocaqları ilə uğurlu əməkdaşlıq əlaqələri qurub. Burada muğam sənətinin tədqiqi və təbliği istiqamətində çoxsaylı layihələr reallaşdırılır. Nazirlər Kabinetinin 21 oktyabr 2024-cü il tarixli Qərarı ilə "Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası"nın və "Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr"in təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 382 nömrəli Qərarında dəyişiklik edilib. Qərarla 2016-cı il 5 oktyabr tarixdə təsdiq edilmiş "Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası"nın müvafiq bənd və hissələrində "akademik" sözündən sonra "beynəlxalq" sözü əlavə olunub.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2024.- 23 oktyabr (№ 233). - S.2.